# Azərbaycan Respublikası - Argentina Respublikası münasibətləri

## Diplomatik əlaqələrə dair qısa məlumat:

Azərbaycan Respublikası və Argentina Respublikası arasındakı diplomatik əlaqələr 1993-cü ilin 8 noyabr tarixində qurulmuşdur. Azərbaycan Respublikasının Argentinadakı Səfirliyi 2010-cu ildə, Argentina Respublikasının Azərbaycandakı Səfirliyi isə 2013-cü ildə açılmışdır. Məmməd Əhmədzadə Azərbaycan Respublikasının Argentinaya təyin olunmuş fövqəladə və səlahiyyətli səfiridir. Karlos Dante Riva Argentina Respublikasının ölkəmizə təyin edilmiş fövqəladə və səlahiyyətli səfiridir.

### Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər:

## Xarici İşlər Nazirləri:

6 aprel 2006-cı il – Elmar Məmmədyarovun rəsmi səfəri;
2 mart 2012-ci il – Hektor Timermanın səfəri;
2-4 iyul 2012-ci il – Hektor Timermanın səfəri;
26-27 iyul 2012-ci il – Elmar Məmmədyarovun rəsmi səfəri;

## Parlamentlərarası əlaqələr:

Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Argentina parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri Rüstəm Xəlilov, Argentina Respublikasının Milli Konqresinin Deputatlar Palatasında Azərbaycan-Argentina parlamentlərarası dostluq qrupunun sədri isə Arturo Veradır.

## Müqavilə-hüquq bazası:

Azərbaycan Respublikası ilə Argentina Respublikası arasında 8 sənəd imzalanmışdır.

***Son yenilənmə tarixi: 28.01.2015***